**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**MƏHCƏBİN ƏSGƏR QIZI QƏDİMBƏYLİ**

# KİÇİKHƏCMLİ FOLKLOR NÜMUNƏLƏRİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ
(NAXÇIVAN FOLKLORU ƏSASINDA)

5804.01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Naxçıvan – 2015**

İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Pedaqogika üzrə elmlər doktoru, professor
**Rüfət Lətif oğlu Hüseynzadə**

**Rəsmi opponentlər:** Pedaqogika üzrə elmlər doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsi**

Müdafiə 26___ sentyabr 2015-ci il tarixdə saat____da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının əsasında yaradılmış B/FD.02.121 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, Əsas bina, Böyük akt zalı

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___ __________2015-ci il tarixdə göndərilmişdir.

Dissertasiya Şurasının
elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru,
dosent İ.Z.Cəfərov

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqillik qazandığımız hazırkı şəraitdə yetişən nəslin milli mədəniyyət nümunələri, qeyri-maddi irsə dair etnopedaqoji materiallar, eləcə də maddi-mənəvi dəyərlər əsasında tərbiyəsi qarşıda duran ən ümdə vəzifələrdən hesab olunur.

Böyük öndərimiz, ümummilli liderimiz, daimayaşar Heydər Əliyev bir sıra çıxışlarında, məktəblilərlə, tələbələrlə, təhsil işçilərilə, müəllim və tərbiyəçilərlə görüşlərində milli-mənəvi dəyərlərimizin toplanılması, qorunaraq gələcək nəsillərə çatdırılması ilə bağlı çoxsaylı tövsiyələr vermişdir. Hansı ki, bu tövsiyələr milli-mənəvi dəyərlərimizin toplanılması, qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsilə bağlı mütəxəssislər və tədqiqatçılar qarşısında mühüm vəzifələr qoyur.

Milli-mənəvi dəyərlərimizin ən nadir incilərindən biri isə milli folklorumuz hesab olunur. Folklorumuzun toplanılması, qorunması, gələcək nəsillərə çatdırılması işində pedaqoq alimlərin qarşısında da mühüm vəzifələr qoyulur. Ona görə ki, etnopedaqoji materiallar adlandırılan bu folklor nümunələri yetişən nəslin hərtərəfli tərbiyəsi işində əvəzsiz rola malikdir. Məhz bu baxımdan folklor nümunələri məktəblilərin əxlaqi-mənəvi simasını saflaşdırır, ideya-siyasi görüşlərini inkişaf etdirir, halal əməyə məhəbbətini yüksəldir, fiziki kamilliyini artırır, ətraf mühiti qorumağa ruhlandırır, estetik bədii zövqlərini formalaşdırır.

Təsadüfi deyil ki, Azərbaycan dövləti folklor nümunələri vasitəsilə yetişən nəslin nümayəndələrinin hərtərəfli inkişaf etdirilməsinə böyük diqqət yetirir və qayğı göstərir. 2009-cu ildə Bakı şəhəri "İslam mədəniyyətinin paytaxtı" elan olunanda Azərbaycan folklorunun islam dəyərlərilə bağlı olan mümunələrinin toplanılması ənənəyə çevrildi. 2011-ci ilin aprel ayında Bakıdakı "Gülüstan" sarayında keçirilən "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu"nun iştirakçılarının xalqımızın milli-mənəvi dəyərlərilə, o cümlədən folklorumuzun zəngin nümunələrilə tanış olması etnopedaqoji dəyərlərimizin beynəlxalq nüfuz və ümumbəşəri imic qazanmasına şərait yaratdı.

Azərbaycan Respublikamızın Prezidenti İlham Əliyev cənablarının milli folklorumuza böyük rəğbət bəsləməsi, bu zəngin və qeyri-adi etnopedaqoji dəyərlərimizin toplanılması, onların tərbiyəvi imkanlarının üzə çıxarılması, yetişən nəslin əxlaqi-mənəvi keyfiyyətlərinin saflaşdırılması vasitəsinə çevrilməsi və habelə gələcək nəsillərə çatdırılması üçün cidd-cəhd göstərməsi folklorumuzun hətta ən kiçik nümunələrinin tərbiyə məktəbi kimi seçilməsi işinin aktuallığını artırmış olur.



Hörmətli Prezidentimizin tövsiyəsi və qayğısı ilə ayrı-ayrı regionların folklor paytaxtı kimi seçilməsi, rayon-şəhər mərkəzlərində, hətta kənd-rayonlarda folklor tədbirlərinin keçirilməsi folklorumuza olan dövlət qayğısının təzahürü kimi dəyərləndirilməlidir.

Son onilliklərdə Gəncənin, Şabranın "Əfsanələr paytaxtı", Şəkinin, İsmayıllının "Sənətkarlar paytaxtı", Lənkəranın, Masallının "Azərbaycanın Folklor Paytaxtı" elan olunması folklor nümunələrimizin pedaqoji fikir tarixindəki mövqeyini daha da möhkəmləndirmiş oldu. Etnopedaqoji materiallarımızın tərbiyə nümunələri kimi qazandığı mövqeyin isə sanbalı bizim tədqiq etdiyimiz problemin aktuallığını artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

2000-ci ildən etibarən ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın apardığı ciddi işlər sayəsində Azərbaycan folklorunun qeyri-maddi irs siyahısına daxil edilməsi həmin milli-mənəvi dəyərlərimizin bənzərsiz tərbiyə məktəbi olmasını bir daha təsdiq etmiş olur. Etnopedaqoji materiallarımızın bənzərsiz tərbiyə məktəbi kimi qəbul edilməsi, hətta onların kiçikhəcmli nümunələrinin də tərbiyə məktəbinə çevrilməsi həmin materialları tədqiqat obyekti kimi seçməyimizi zəruri və aktual edir.

Bu zərurətə istinad edərək biz tədqiqat mövzumuzu "Kiçikhəcmli folklor nümunələrində tərbiyə məsələləri (Naxçıvan folkloru əsasında)" probleminə həsr etmişik. Əsas məqsəd isə Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin tərbiyəvi imkanlarını üzə çıxarmaq və pedaqoji fikir tariximizi zənginləşdirmək baxımından sistemə salmaqdan ibarət olmuşdur.

Qeyd etmək vacibdir ki, ölkəmizdə ilk dəfə olaraq Azərbaycan folklorunun pedaqoji aspektdə tədqiqinin əsasını professor Əliheydər Həşimov qoymuşdur. Professor Əliheydər Həşimov Azərbaycanda milli folklorun etnopedaqoji əsaslarını fundamental şəkildə tədqiq etməklə böyük bir etnopedaqogika məktəbi yaratmışdır. 50-ci illərdən başlayaraq o, bir sıra dəyərli məqalələr və əsərlər yazmışdır. Onun "Azərbaycan xalq pedaqogikasının ümumi əsasları və xüsusiyyətləri", "Düz sözün kəsəri", "Azərbaycan xalq pedaqogikasından mühazirələr", "Azərbaycan xalq pedaqogikasından iki mühazirə", "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri", "Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri", "Gənc nəslin tərbiyəsində tarixi irsin əhəmiyyəti və onun öyrədilməsi yolları", "Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə" və professor F.B.Sadıqovla birlikdə yazdığı "Azərbaycan xalq pedaqogikası", "Azərbaycan xalq pedaqogikası antologiyası" adlı əsərləri xalq pedaqogikasının nadir incilərindən hesab olunur. Professor Ə.Ş.Həşimovun "Azərbaycan xalq nağıllarında və atalar

sözlərində əqli və əxlaqi tərbiyəyə aid fikirlər" adlı namizədlik və "Azərbaycan xalq pedaqogikası" adlı doktorluq dissertasiyaları bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Lakin bu dəyərli əsərlərdə Naxçıvan folklorunun nümunələrinin yer almaması, onların tərbiyəvi əhəmiyyəti haqqında sanballı söz deyilməməsi bizi bu problemin tədqiqinə sövq etmişdir.

İ. İ. Əliyevin "Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti", "Azərbaycan etnopedaqogikası" adlı əsərlərində Azərbaycan folklorunun müxtəlif janrlarından olan nümunələrindən söhbət açılsa da, Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin tərbiyəvi əhəmiyyəti məsələsinə toxunulmur.

Azərbaycan xalq pedaqogikasına dair yazılmış dissertasiyalarda da Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində tərbiyə məsələləri yer almır. Ə.Ş.Həşimovun "Azərbaycan xalq pedaqogikası", İ.B.Həşimovun "Xalqın tərbiyəvi ideya, adət və ənənələrinin Azərbaycan pedaqoji fikrinin formalaşmasına təsiri və onlardan müasir məktəb təcrübəsində istifadə ("Kitabi-Dədə Qorqud" materialları üzrə)", J.Ə.Mustafayevanın "Şagirdlərin vətənpərvərlik tərbiyəsində xalq pedaqogikası materiallarından istifadə", İ.Q.Xəlilovun "Folklorda ailə tərbiyəsi məsələləri və uşaqların tərbiyəsində onlardan istifadə", X.İ.Səlimxanovanın "Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına şifahi xalq yaradıcılığı nümunələrinin təsiri", Z.Q.Rəsulovun "Məktəblilərin əməksevərlik tərbiyəsində xalqın əməklə bağlı mütərəqqi adət-ənənələri və fikirlərindən istifadə", N.İ.Babayevanın "Yuxarı sinif şagirdlərinin iqtisadi tərbiyəsində xalq pedaqogikası materiallarından istifadə (Azərbaycan xalq pedaqogikası və ümumtəhsil məktəblərinin materialları əsasında)", H.A.Həmidovun "Azərbaycan milli oyunlarının sosial-pedaqoji mahiyyəti və tərbiyə işində onlardan istifadə", İ.İ.Əliyevin "Orta ümumtəhsil məktəblərində təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsinə etnopedaqoji materiallardan istifadənin təsiri", S.Q.Həsənovanın "Ailə tərbiyəsinin səmərəli təşkilində etnopedaqoji materiallardan istifadənin imkan və yolları", T.V.Rüstəmlinin "V-IX sinif şagirdlərinin ailə həyatına hazırlanmasında etnopedaqoji materiallardan istifadə üzrə işin imkan və yolları" dissertasiyaları etnopedaqoji mövzularda yazılmışdır. Lakin bu dəyərli əsərlərin heç birində Naxçıvan folklorunun kiçikhəcmli nümunələri yer almamış və onların tərbiyəvi əhəmiyyəti barədə məlumat verilməmişdir. Qeyd olunanlar onu göstərir ki, Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin etnopedaqoji əsaslarının ciddi şəkildə tədqiq edilməsinə zəruri ehtiyac vardır. Bütün bunları nəzərə alaraq biz dissertasiya mövzumuzu "Kiçikhəcmli folklor nümunələrində tərbiyə



məsələləri (Naxçıvan folkloru əsasında)" probleminə həsr etmişik.

**Tədqiqatın obyekti** məktəb və pedaqoji fikir tarixini zənginləşdirən kiçikhəcmli folklor nümunələrindəki tərbiyə məsələlərinin öyrənilməsi prosesidir.

**Tədqiqatın predmetini** məktəb və pedaqoji fikir tarixini zənginləşdirəcək kiçikhəcmli folklor nümunələrinin tərbiyəvi imkanlarının öyrənilməsinə xidmət edən pedaqoji işin forma, məzmun, vasitə, üsul və yollarının təhlili təşkil edir.

**Tədqiqatın məqsədi** hazırki şəraitdə Azərbaycanın məktəb və pedaqoji fikir tarixini zənginləşdirən kiçikhəcmli folklor nümunələrinin dərindən təhlil edilməsi, onların tərbiyəvi imkanlarının üzə çıxarılmasından ibarətdir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulan məqsədə uyğun olaraq bir sıra vəzifələrin həlli reallaşdırılmışdır:

1. Naxçıvan folklorunun kiçikhəcmli nümunələrini şifahi və yazılı mənbələrdən toplamaq, bu mətnlərdə tərbiyə ilə bağlı problemləri qruplaşdırmaq, onların mövzularına görə elmi-pedaqoji təhlilini verib dəyərləndirmək.

2. Naxçıvan folklorunda şəxsiyyətin inkişafı və tərbiyəsi məsələlərinin elmi-pedaqoji şərhini vermək.

3. Naxçıvan folklorunda şəxsiyyətin inkişafı və tərbiyəsində irsi amillərin rolunu müəyyənləşdirib elmi-pedaqoji baxımından dəyərləndirmək.

4. Naxçıvan folklorunda şəxsiyyətin inkişafı və formalaşdırılmasında tərbiyənin və mühitin rolunu dəyərləndirmək.

5. Naxçıvan folkloru materiallarında tərbiyənin tərkib hissələrini ayrı-ayrılıqda araşdırıb üzə çıxarmaq və sistemə salmaq.

6. Naxçıvan folkloru materiallarında əxlaq tərbiyəsi məsələlərini üzə çıxarıb etnopedaqoji cəhətdən dəyərləndirmək.

7. Naxçıvan folkloru materiallarında fiziki və əqli tərbiyənin vəhdəti məsələlərini elmi-pedaqoji cəhətdən səciyyələndirmək.

8. Naxçıvan folklorunda əməyə məhəbbət tərbiyəsi məsələlərinin elmi-pedaqoji şərhini vermək.

9. Naxçıvan folklorunun ayrı-ayrı janrlarında, eləcə də aşıq yaradıcılığında estetik bədii zövq məsələlərini təhlilə cəlb edib onların tərbiyəvi rolunu dəyərləndirmək.

10. Naxçıvan folklorunun müxtəlif janrlarında olan ekoloji tərbiyə ilə bağlı materiallarının elmi-pedaqoji təhlilini vermək, onların müasir ekoloji mühitin qorunmasında tərbiyəvi rolunu dəyərləndirmək.

**Tədqiqatın metodoloji əsasını** məktəb və pedaqoji fikir tarixi ilə

bağlı olan faktları, hadisə və prosesləri öyrənmək və dəyişdirməklə tətbiq olunan prinsiplərin, metodların, nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqat müddətində yazılı və şifahi folklor materiallarının öyrənilməsi, elmi-nəzəri təhlil, müşahidə, müsahibə, sorğu, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın mənbələri.** Tədqiqat problemi işlənərkən Azərbaycan dövlətinin təhsil direktivlərindən, böyük öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ən qüdrətli milli-mənəvi dəyərlərimiz sayılan folklorumuzun tərbiyəvi əhəmiyyəti barədə dedikləri ilə bağlı olan mənbələrdən, Azərbaycan mütəfəkkirlərinin folklorla bağlı söylədikləri hikmətlərdən və kiçikhəcmli folklor nümunələrinin əks olunduğu xalq mənbələrindən, xalq ağsaqqal və ağbirçəklərinin söyləmələrindən, videoyazılardan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi qarşıya qoyulan məqsədə uyğun olaraq müəyyənləşdirilərək reallaşdırılan vəzifələrdən irəli gəlir və aşağıdakı müddəaları özündə əks etdirir:

- İlk dəfə olaraq kiçikhəcmli etnopedaqoji nümunələrin tərbiyəvi imkanları sistemə salınır;
- Azərbaycanın məktəb və pedaqoji fikir tarixi üçün dəyərli olan Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin ilk dəfə olaraq tərbiyəvi mahiyyəti, imkanları və yetişən nəslin hərtərəfli inkişafı üçün əhəmiyyəti açıqlanır;
- İlk dəfə olaraq Naxçıvan folklorunun kiçikhəcmli nadir nümunələri toplanılmış, onların etnopedaqoji mahiyyəti aydınlaşdırılmış və tərbiyəvi əhəmiyyəti təhlilə cəlb edilmişdir;
- Naxçıvan folklorunun şifahi və yazılı mənbələrdən toplanmış kiçikhəcmli nümunələri ilk dəfə tərbiyənin tərkib hissələri baxımından təsnif olunaraq sistemləşdirilmiş, beləliklə, Azərbaycanın məktəb və pedaqoji fikir tarixinin zənginləşməsi üçün müvəffəqiyyətli addım atılmışdır.
- İlk dəfə olaraq Naxçıvanın kiçikhəcmli folklor nümunələri əsasında Naxçıvan xalq pedaqogikasının elmi mənzərəsi yaradılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, onun nəticələri Azərbaycan məktəb və pedaqoji fikir tarixini zənginləşdirməklə yanaşı, orta, orta ixtisas və ali məktəbin bütün pillələrində kiçikhəcmli folklor nümunələri vasitəsilə yetişən nəslin əxlaqının saflaşdırılması və hərtərəfi tərbiyələndirilməsi sahəsində mütəxəssislərin nəzəri fikirlərinin dərinləşdirilməsinə yardımçı ola bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan alınan nəticələrdən,



tətbiq olunan metodlardan, dissertasiyada irəli sürülən elmi ideyalardan, tövsiyə və məsləhətlərdən bəhrələnməklə valideynlər, tərbiyəçilər, müəllimlər kiçikhəcmli folklor nümunələri vasitəsilə yetişən nəslin hərtərəfli inkişafını, şəxsiyyətin formalaşdırılmasını və tərbiyəsini təşkil etmək məqsədilə istifadə edə bilərlər.

Dissertasiyada öz əksini tapan materialalrdan pedaqogika, ali məktəb pedaqogikası, Azərbaycan xalq pedaqogikası, etnopsixologiya, sosiologiya, folklorşünaslıq sahəsində tədqiqat aparanlar, elmi məqalə, monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlayanlar da istifadə edə bilərlər.

**Müdafiəyə təqdim olunan müddəalar** aşağıdakılardan ibarətdir:

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələri Azərbaycan məktəb və pedaqoji fikir tarixini zənginləşdirən ən dəyərli etnopedaqoji materiallar olmaqla yetişən nəslin ən mühüm tərbiyə vasitəsi hesab olunur;
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrindəki şəxsiyyətin formalaşdırılmasına təsir edən amillərə istinad etməklə yetişən nəslin hərtərəfli tərbiyəsini və inkişafını təmin etmək mümkündür;
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin toplanılması, tərbiyənin tərkib hissələri şəklində təsnif edilərək sistemə salınması pedaqoji elmin nüfuzunu artırır və pedaqoji fikir tarixini zənginləşdirir;
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin əqli, əxlaqi, əmək, estetik, fiziki, ekoloji tərbiyə baxımından öyrənilməsi və tətbiqi yetişən nəslin nümayəndələrinin bir şəxsiyyət kimi formalaşdırılmasına və Azərbaycan etnopedaqoji fikrinin zənginləşməsinə təsir etmiş olur.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmiş, müzakirə olunaraq bəyənilmiş və müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya işinin əsas müddəaları müəllifin dərc etirdiyi 14 məqalədə (o cümlədən xarici ölkələrdə 3 məqalə olmaqla), habelə respublika və beynəlxalq elmi-praktiki konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, səkkiz yarımfəsli əhatə edən iki fəsildən, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqatın aktuallığı əsaslandırılır, obyekti, predmeti, əsas məqsədi, məqsəddən doğan vəzifələri, metodologiyası, metodları, mənbələri, elmi yeniliyi, nəzəri-praktik əsasları, müdafiəyə təqdim olunan müddəaları və dissertasiyanın strukturu barədə məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Kiçikhəcmli folklor nümunələrinin etnopedaqoji mahiyyəti, tərbiyəvi əhəmiyyəti və şəxsiyyətyönümlülük xüsusiyyətləri"** adlanır və üç yarımfəsli özündə birləşdirir.

**"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin etnopedaqoji mahiyyəti və şəxsiyyətyönümlülük xüsusiyyətləri"** adlanan birinci yarımfəsildə Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin mahiyyəti açıqlanır, layla, oxşama, arzulama, bayatı, vücudnamə, mövsüm və mərasim nəğmələri, xanbəzəmə, mif, əfsanə, rəvayət, xalq inancları və s. tərbiyəvi əhəmiyyəti şərh olunur, onların şəxsiyyətyönümlülük xüsusiyyətləri izah edilir. Yarımfəsildə göstərilir ki, kiçikhəcmli folkor nümunələri yetişən nəslin bir şəxsiyyət kimi inkişafında və formalaşdırılmasında intəhasız rola malikdir. Xüsusilə bu möhtəşəm mənəvi abidələr sırasında özünəməxsus yer alan Naxçıvan folklorunun kiçikhəcmli nümunələri min illər, əsrlər boyu mövcud olmuş, dildən-dilə, ağızdan-ağıza keçərək insanların milli-mənəvi tərbiyə vasitəsinə yüksəlmişdir. Yarımfəsildə milli-mənəvi dəyərlər səviyyəsinə yüksələn kiçikhəcmli bu folklor nümunələrinin etnopedaqoji mahiyyəti aydınlaşdırılmaqla yanaşı, onların şəxsiyyətyönümlülük xüsusiyyətləri barədə fikir sölənilir və göstərilir ki, ən zəngin milli-mənəvi dəyərlərimizdən olan folklorumuz yetişən nəslin nümayəndələrinin bir şəxsiyyət kimi formalaşdırılmasında mühüm rol oynayır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixdə təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" layihəsində birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasına yönəldilmişdir. Burada şəxsiyyətyönümlü təhsilin məzmununda şəxsiyyətyönümlü təlim-tərbiyə işləri də yer aldığı üçün ictimai fənlərin tədrisində, xüsusilə ədəbi-bədii materialların öyrənilməsi zamanı bu məsələyə xüsusi diqqət göstərmək lazım gəlir. Yəni pedaqoji prosesdə kiçikhəcmli folklor materiallarının didaktik mahiyyət kəsb edən nümunələrindən səriştəyə əsaslanan novatorluq səviyyəsində, müasir təlim texnologiyalarının gücü ilə elə istifadə etmək lazımdır ki, onlar şagird şəxsiyyətinin hərtərəfli inkişafını təmin etmiş olsun. Çünki şəxsiyyətyönümlü tərbiyə işinin ilkin mərhələsi kiçikhəcmli folklor nümunələrinin öyrədilməsindən başlayır. Yarımfəsil yekunlaşdırılarkən dissertasiya müəllifinin qənaəti belə ifadə olunur:



- Naxçıvan folkorunun kiçikhəcmli nümunələri Azərbaycan folklorunun ən dəyərli tərkib hissələrindən olmaqla zəngin tərbiyəvi təsir gücünə malik olan etnopedaqoji materiallardır;
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələri etnopedaqoji mahiyyət daşımaqla yanaşı, müasir dövrümüzün şəxsiyyətyönümlülük xüsusiyyətlərini də özündə ehtiva edir. Yəni Naxçıvan folklorunun bütün janrlardan olan kiçikhəcmli nümunələri istər ailədə, istər pedaqoji prosesdə, istərsə də sosial mühitdə şəxsiyyətin inkişafı və tərbiyəsini, bütövlküdə isə formalaşdırılmasını özündə ehtiva edir;
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələri şəxsiyyətyönümlülük əlamətlərini daşımaqla, ən dəyərli etnopedaqoji materiallar kimi Azərbaycanda məktəb və pedaqoji fikir tarixini zənginləşdirir.

Birinci fəslin **"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin formalaşmasına təsir edən irsiyyət amilinin roluna dair fikirlər"** adlanan ikinci yarımfəslində şəxsiyyətin formalaşmasına təsir edən irsi-genetik, mühit və tərbiyə amillərinin rolu məsələlərinə, P.Daqdeli, E.Torndayk, Con Dyui, Con Lokk, J.J.Russo, D. Didro, R. Ouen, M. Lepeletye, K. A. Helvetsi, Y.A. Komenski,V.Q.Belinski, S.Urməvi kimi alimlərin fikirlərinə münasibət bildirilir və Ə.Ş.Həşimov, F.B.Sadıqov kimi Azərbaycan pedaqoqlarının irsiyyət haqqındakı fikirləri barədə polemika aparılır və Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin formalaşdırılmasına təsir edən amillərin etnopedaqoji mahiyyəti aydınlaşdırılır.

Yarımfəsildə Naxçıvan folklorunun "Anası gəzən ağacları balası budax-budax gəzər", "Qırağına bax bezini al, anasına bax, qızını al", "Atasında olmayanı balasında axtarma", "Yağ iylənməz, əsil itməz", "Su suya qarışar, yağ yağa", "Tuladan it olmaz, itdən tula", "Eşşəkdən at olmaz, ciyərdən ət", "Payız cücəsindən xoruz olmaz", "Çölmək ymbalanıb duvağını tapar", "Ağac səmtinə yıxılar" kimi atalar sözlərinə, bir sıra məsəl və nəsihətlərə, "Məlik Məmməd və Məlik Əhməd", "Qırxqönçə xanım" kimi kiçikhəcmli nağıllara və ustadnamələrə, aşıq şeiri nümunələrinə istinadən Naxçıvan folklor mühitində irsiyyət amilinə münasibət bildirilir və irsiyyət amilinin tərbiyə və mühit amilləri ilə əlaqəsi məsələləri dəyərləndirilir, həmçinin şəxsiyyətin formalaşmasına təsir edən irsiyyət amillərinin rolunu özündə ehtiva edən etnopedaqoji materialların toplanılması, təsnif edilməsi və tərbiyəvi əhəmiyyəti barədə elmi şərhlər verilir.Yarımfəsil yekunlaşdırılarkən göstərilir ki:

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələri Azərbaycan folklorunun ən dəyərli tərkib hissələrindən olmaqla zəngin tərbiyəvi təsir gücünə malik olan etnopedaqoji materiallardır;

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələri etnopedaqoji mahiyyət daşımaqla yanaşı, müasir dövrümüzün şəxsiyyətyönümlülük xüsusiyyətlərini də özündə əks etdirir. Yəni Naxçıvan folklorunun bütün janrlardan olan kiçikhəcmli nümunələri istər ailədə, istər pedaqoji prosesdə, istərsə də sosial mühitdə şəxsiyyətin inkişafı və tərbiyəsini, bütövlükdə isə formalaşdırılmasını özündə ehtiva edir;

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələri şəxsiyyətyönümlülük əlamətlərini özündə daşımaqla, ən dəyərli etnopedaqoji materiallar kimi Azərbaycanda məktəb və pedaqoji fikir tarixini zənginləşdirir.

Fəslin **"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin inkişafı və formalaşdırılmasına mühit və tərbiyə amillərinin təsirinə dair fikirlər"** adlı sonuncu yarımfəslində ilk dəfə olaraq Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin formalaşdırılmasına təsir edən ictimai-sosial mühit və tərbiyə amillərinə dair etnopedaqoji ideyalar toplanılaraq sistemləşdirilir və onların tərbiyəvi əhəmiyyəti şərh olunur.

Yarımfəsildə insanın fərdi inkişafının, onun şəxsiyyətinin formalaşmasının ictimai-sosial həyat şəraitindən, düşdüyü mühitdən, ictimai münasibətlər sistemindən asılı olması, tərbiyənin ictimai-iqtisadi şəraitlə və mühitlə uyğunluğu, tərbiyə ilə mühitin qarşılıqlı əlaqəsində şəxsiyyətin tərbiyəsi üçün əxlaqi keyfiyyətlərə uyğun mühitin olması, mühitin şəxsiyyətə təsirinin zaman və şəraitlə bağlılığı kimi mühit və tərbiyə problemləri Naxçıvan folklorunun kiçikhəcmli nümunələrindən olan "Əlimərdanın nağılı", "Hazarandastan bülbülü", "Məhəmməd və ilan", "Atanın vəsiyyəti" kimi folklor materiallarına istinadən təhlil olunub dəyərləndirilir.

Bunlarla yanaşı, yarımfəsildə Naxçıvan folklor mühitinin şəxsiyyətin inkişafı və formalaşmasındakı rolu, bu folklor mühitində irsiyyət, mühit və tərbiyə amillərinin vəhdətdə olması məsələləri də təhlilə cəlb olunub dəyərləndirilir.

Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin yazılı və şifahi mənbələrdən toplanılaraq təsnif edilməsi, sistemləşdirilərək məktəb və pedaqoji fikir tarixini zənginləşdirmək baxımından mühüm tərbiyəvi əhəmiyyətə malik olması da bu yarımfəsildə öz elmi-pedaqoji əksini tapır. Yarımfəsil yekunlaşdırılaraq belə ümumiləşdirilir:

-Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin inkişafı və formalaşdırılmasına təsir edən amillərə dair xalq kütləsinin söylədikləri fikirlər akademik pedaqogikanın bu problemlə bağlı yürütdüyü fikir və ideyalara uyğundur:

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin inkişafı və formalaşdırılmasına dair irəli sürülən fikirlər insanın bir şəxsiyyət



kimi formalaşması ilə, onun irsən əldə etdiyi qüvvələrlə, bərqarar olduğu mühitlə və aldığı tərbiyə ilə sırf bağlıdır;

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin formalaşdırılmasına təsir edən amillərin ardıcıllıqla nəzərə alınması tövsiyə edilərkən tərbiyə işinə kiçik yaşlarından başlamaqla bütün yaş dövrləri üzrə davam etdirilməsi, hər dövrün səciyyəvi xüsusiyyətlərinin nəzərə alınması xatırladılır. Yəni irsi əlamətlərin mühitdə tənzimlənməsi və tərbiyə işinə məqsədyönlü, planlı və mütəşəkkil olaraq tətbiq edilməsi zəruri sayılır.

Dissertasiyanın ikinci fəsli **"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində tərbiyənin tərkib hissələrinin sistemi"** adlanır. Bu fəsil beş yarımfəsildən ibarətdir.

Bu fəslin **"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində əxlaq tərbiyəsi və mənəvi zənginlik məsələləri"** adlanan birinci yarımfəslində əvvəlcə əxlaq tərbiyəsi ilə yanaşı, mənəvi zənginliyin elmi-pedaqoji mahiyyəti açıqlanır. Sonra etnopedaqoji materiallarda tərbiyənin tərkib hissələrinin qoyuluşu barədə məlumat verilərək göstərilir ki, Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində milli tərbiyənin böyük bir sistemi mövcuddur və onların ardıcıllıqla toplanılaraq etnopedaqoji örnəklər halına gətirilməsi zəruridir. Bu fikirlərin məntiqi davamı kimi yarımfəsildə tərbiyənin ən aparıcı tərkib hissələrindən birincisi sayılan əxlaq tərbiyəsinin kiçikhəcmli folklor nümunələrindəki qoyuluşu öz əksini tapır. Əxlaq tərbiyəsi və mənəvi zənginliklə bağlı etnopedaqoji fikirlərin aydınlaşdırılması üçün Naxçıvan folklorunun kiçikhəcmli nümunələrindən olan " Avçı Pirim", "Nuh tufanı", "Cin mıncığı", "Altunla Zeynəb", "Zeynəb gölü" kimi mif, əfsanə və rəvayətlər, xalq inancları, bayatı, layla və oxşamalar, aşıq şeiri nümunələri Naxçıvan xalq pedaqogikasının örnəkləri şəklində təhlilə cəlb olunur. Milli əxlaqın və mənəvi zənginliyin vətənpərvərlik, yurdsevərlik, ekoloji mühitin gözəlliklərini qorumaq, insana sevgi, saflıq, düzlük, doğruçuluq, halallıq, xeyirxahlıq kimi atributları milli əxlaq və milli tərbiyə mövqeyindən qiymətləndirilir.

Yarımfəsil ümumiləşdirilərək göstərilir ki:

- Azərbaycan folklorunda olduğu kimi, Naxçıvan folklorunun ayrı-ayrı janrlarında da mənəvi zənginlik, əxlaq tərbiyəsi və onun məzmununa daxil olan vətənsevərlik, yurdsevərlik komponentləri geniş şəkildə öz əksini tapmışdır.

- Fiziki kamillik, yenilməz güc, igidlik və qorxmazlıq, dözümlülük, iradəsindən dönməmək, vətəni yad nəzərlərdən qorumaq kimi əxlaqi-mənəvi keyfiyyətlər Naxçıvan folklorunun bir çox janrlarında, o cümlədən kiçikhəcmli nağıllarda, dastansayağı rəvayətlərdə, aşıq şeiri nümunələrində, miflərdə, əfsanə və rəvayətlərdə, bayatılarda, layla və oxşamalarda təsvir və

tərənnüm olunmuş və xalq pedaqogikası işığında səciyyələndirilmişdir.

- Naxçıvan folklorunun göstərilən janrlarında fiziki, əqli və əxlaq tərbiyəsinin vətənpərvərlk komponentilə vəhdəti insan şəxsiyyətini formalaşdıran, onu mənəvi cəhətdən kamilləşdirən xalq tərbiyəsi nəzəriyyəsi kimi diqqəti cəlb edir. Xalq yaradıcılığında, o cümlədən Naxçıvan folkloru janrlarında verilən fiziki, əqli və əxlaqi kamillik ideyaları şəxsiyyəti tərbiyələndirən və onu formalaşdıran pedaqoji bədii məziyyət kimi Azərbaycan pedaqoji fikir tarixini zənginləşdirir.

İkinci fəslin **"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində fiziki və əqli tərbiyənin vəhdəti məsələləri"** adlanan ikinci yarımfəslində Naxçıvan folklorunda insanın cismani, fiziki kamilliyinin tərbiyənin bir komponenti, əqli tərbiyənin isə tərbiyənin ikinci komponenti kimi verilməsi Azərbaycan etnopedaqogikasının səciyyəvi xüsusiyyətlərindən biri kimi səciyyələndirilir.

Yarımfəsildə fiziki gücün ağıl gözəlliyinin imkanları hesabına tənzimlənməsinin yaşamaq və mübarizə aparmaq, vətəni qorumaq, şəxsiyyətin ahəngdar inkişafını, onun uzunömürlülüyünü, yaradıcı əməkdə iştirakını təmin etmək, fiziki və mənəvi mədəniyyətə, çəldlik əzmkarlıq, dözümlülük, dəyanətlilik kimi iradi vərdişlərə yiyələnməkdə əvəzsiz rola malik olması Naxçıvan folklorunun "Qırxqönçə xanım", "Beçə dərviş nağılı", "İsgəndərin dirilməsi", "Şahzadə Seyfəddin", "Xıdırın nağılı", "Lətif şah". "Telli Qara", "Ovçu Əhməd", "Oğlanla sehirli kişi", "Zəncirlənmiş əjdaha", "Kəlləgöz", "Qurd arvad", kimi folklor nümunələrinə istinadən etnopedaqoji cəhətdən təhlil olunub dəyərləndirilir. Əsaslandırılır ki, xalq yaradıcılığında, o cümlədən Naxçıvan folkloru janrlarında verilən fiziki və əqli kamillik məsələləri şəxsiyyəti formalaşdıran və onu mənəvi cəhətdən zənginləşdirən xalq örnəkləridir. Göründüyü kimi, ikinci fəslin adı çəkilən yarımfəslində Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin qeyri-adi etnopedaqoji əlamətlərindən biri təhlilə cəlb edilir. Yəni yarımfəsildə Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində fiziki və əqli tərbiyə ünsürlərinin vəhdətindən yaranan etnopedaqoji örnəklər təhlil olunur ki, folklorda fiziki və əqli tərbiyənin vəhdəti məsələsi etnopedaqoji nəzəriyyədə yenidir və ilk dəfə bizim tərəfimizdən təhlilə cəlb olunur. Yarımfəsildə saslandırılır ki, Naxçıvan mühitində yaranan xalq pedaqogikası nümunələrində ağılla gücün vəhdətindən doğan tərbiyəlilik səviyyəsi həmişə önə çəkilir. Naxçıvan folklorunun yazılı və şifahi mənbələrdən toplanılan kiçikhəcmli nümunələrində fiziki gücün ağıl sayəsində sərf olunması, ağıla əsaslanan qüvvətin düzgün tənzimlənməsi şəraitində insan həmişə şər qüvvələrə qalib gəlir.Məhz ona görə də məsələyə bu kontekstdən yanaşılaraq yarımfəsildə deyilənlər belə



yekunlaşdırılır:

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində fiziki və əqli tərbiyənin vəhdəti insan şəxsiyyətinin formalaşdırılmasının əsas amillərindən hesab olunmuşdur;

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində təlqin olunur ki, insan öz fiziki imkanlarını ağlının gücü ilə tənzimləyərsə, o, hər hansı bir ali məqsədinə çata bilər;

- İnsanlar öz fiziki imkanlarını ağıllarının gücü ilə tənzimləyərkən hər hansı əxlaqa zidd olan hərəkətlərə yol verərlərsə, onlar ali məqsədə doğru gedən yolda çətinliklərlə üzləşər və müvəffəqiyyətsizliyə uğrayarlar;

- Fiziki və əqli tərbiyənin vəhdəti insan şəxsiyyətini formalaşdırır və onu mənəvi cəhətdən kamilləşdirir.

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində fiziki və əqli tərbiyənin vəhdətindən yaranan etnopedaqoji örnəklər məhz bu yönümdə məktəb və pedaqoji fikir tarixini zənginləşdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

İkinci fəslin üçüncü yarımfəslində tərbiyənin əsas tərkib hissələrindən biri kimi folklorda əmək tərbiyəsi məsələləri ilə bağlı etnopedaqoji dəyərlərə münasibət bildirilir. **"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində əməyə məhəbbət tərbiyəsi məsələləri"** adlanan üçüncü yarımfəsildə Naxçıvan folklorunun əmək tərbiyəsi örnəkləri təhlilə cəlb olunur. Yarımfəsildə Naxçıvanın ilk etnopedaqoji örnəkləri hesab olunan əmək nəğmələrindən başlayaraq Naxçıvan folklorunun bir sıra nümunələri, o cümlədən bayatılar, mərasim nəğmələri, sayaçı mahnıları, holavarlar, həmçinin rəvayətlər, əfsanələr, miflər, kiçikhəcmli nağıllar, xalq hekayətləri əməyə məhəbbət tərbiyəsi nümunələri kimi təhlilə cəlb olunur. Yarımfəslə daxil edilən əmək nəğmələri timsalında elə sayaçı nəğmələri seçilmişdir ki, bu nəğmələrdə Naxçıvanın əmək mühiti üçün səciyyəvi olan zəhmətsevərlik, işgüzarlıq örnəkləri halal əməyin əsl meyarı kimi özünü biruzə verir. Yarımfəsildə verilən sayaçı nəğmələrinin timsalında belə meyarların praktik nümunələri öz əksini tapır.

Yarımfəsildə təhlilə cəlb olunan belə praktik nümunələr şərh edilərkən göstərilir ki, sayaçı nəğmələrində tərənnüm olunan halal əməyin əsl meyarı elə əməkçi insanların özlərinin nəzərinə çatdırılır. Nəğmədə əməyin, yəni halal zəhmətin əsl meyarı olan var-dövlətin firavan həyatın rəhni kimi təsvir olunması mühüm tərbiyəvi əhəmiyyət kəsb edir. Əslində diqqətə çatdırılan var-dövlət burada halal zəhmətin nəticəsi hesab olunur. Yarımfəsildə halal əməyin insan həyatındakı və ictimai-sosial münasibətlərdəki əvəzsiz rolunu dəyərləndirmək üçün Naxçıvan folklorunun "Nuh Tufanı",

"Oğuz oğlu və qurd", "Qanlı göl", "Əkinçi ilə Şah Abbas", "Şah Abbasın sənəti", "Fərhad evi", "Qoca ilə quş", "Xıdır Nəbi", "Yağ, yağışım" kimi kiçikhəcmli nağıl, mif, əfsanə və rəvayətlərinin, mövsüm, mərasim və əmək nəğmələrinin etnopedaqoji təhlili verilmiş, həmçinin əməyin estetikası, əmək tərbiyəsinin estetik tərbiyə, əqli tərbiyə, əxlaq tərbiyəsi və ekoloji tərbiyə ilə bağlılığı məsələlərinə də elmi-pedaqoji münasibət bildirilmişdir. Bütün yarımfəsil boyu Naxçıvan folklorundan iqtibas edilən praktik nümunələr əmək tərbiyəsi örnəkləri kimi şərh olunaraq belə ümumiləşdirmələr aparılır:

- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində əməyə məhəbbət tərbiyəsi geniş yer tutur və bu nümunələr Naxçıvan xalq deqogikasının ən dəyərli materialları kimi xüsusi tərbiyəvi əhəmiyyətə malikdir.;
- Naxçıvan folklorunun rəvayətlər, əfsanələr, kiçikhəcmli nağıllar kimi nümunələrində əməyə məhəbbət tərbiyəsilə bağlı zəngin ideyalar mövcuddur. Bu ideyaların əmək tərbiyəsi nümunəsi kimi tədqiq edilərək etnopedaqoji materiallar şəklinə salınması Azərbaycan pedaqoji fikir tarixinin zənginləşdirilməsində mühüm əhəmiyyət kəsb edir;
- Naxçıvan folklorunda əmək nəğmələri, sayaçı nəğmələri, holavarlar, mərasim mahnıları, rəvayətlər əməkçi insanların, eləcə də yetişən nəslin əməyə məhəbbət tərbiyəsini formalaşdırmaqla yanaşı, Azərbaycan xalq pedaqogikasının mühüm tərkib hissəsi kimi pedaqoji fikir tarixini zənginləşdirəcəkdir;
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrindəki əməyə məhəbbət tərbiyəsi ünsürləri yetişən nəslin ekoloji mühitin saflaşdırılması və estetik-bədii zövqün formalaşdırılması ilə bağlı münasibətlərinin tənzimlənməsini də təmin edəcəkdir.

İkinci fəslin dördüncü müvafiq fəslində Naxçıvan folklorunun estetik-bədii zövq aşılayan kiçikhəcmli nümunələri təhlilə cəlb olunur. İkinci fəslin **"Kiçikhəcmli folklor nümunələrində estetik tərbiyə məsələləri"** adlı dördüncü yarımfəslində Naxçıvan folklorunun bədii zövq elementlərilə zəngin olan kiçikhəcmli nümunələri qismində laylalara, bayatılara, haxıştalara, yallılara (daha çox Şərur yallısına) və Naxçıvanın xalq mahnılarına daha çox üstünlük verilir. Ona görə ki, bu nümunələr Naxçıvanın estetik-bədii mühitini digər bölgələrin estetik-bədii zövq mühitindən fərqləndirir. Yarımfəsildə Naxçıvanın qeyri-adi estetik-bədii zövq mühiti üçün səciyyəvi olan laylalar, oxşamalar, bayatılar, xalq mahnıları, haxıştalar, xalq rəqsləri bədii təhlilin obyektinə çevrilir.

Nümunə təriqilə yarımfəsildə verilən həmin laylalardan birinə və onun estetik-bədii zövq baxımından məzmununa diqqət edək:



Laylay dedim doyunca,
Baş yastığa qoyunca.
Pardaxlan qızıl gülüm,
Bir iyliyim doyunca.

Göründüyü kimi, layladakı şirinlik, həzinlik, məlahətlilik, münəvvərlilik, liriklik, şirin-şəkər bədii üslub, şirin üslubdan doğan, zövq oxşayan rəvanlıq və bədii təsvirə sığmayan gözəllik elementləri ananın intəhasız məhəbbətindən, bənzərsiz valideyn sevgisindən qidalanır.

Eyni fikirlər yarımfəsildə Naxçıvanın estetik mühitində yaranan haxıştalar, xalq mahnıları, aşıq şeirləri, aşıq nəğmələri haqqında da deyilir və fiziki-təbii gözəlliklə intellektual əxlaqi gözəlliyin vəhdəti məsələlərinə də münasibət bildirilir. Əsaslandırılır ki, Naxçıvan folklorunda verilən zahiri və daxili gözəlliyin vəhdəti şəxsiyyəti formalaşdıran və onu kamilləşdirən estetik meyar hesab olunur. Aşıq Fətullahın aşağıdakı qoşması bu fikri əyaniləşdirir:

Qədrini bilənsən gövhər, zərin də,
Qızılgül əlində, cığa sərində.
Ağlın, huşun, söz-söhbətin yerində,
Afərin səndəki kamala, gözəl.

Yarımfəsildə etnopedaqoji cəhətdən təhlilə cəlb olunan haxıştalar, xalq mahnıları və aşıq şeiri nümunələri içərisində Naxçıvanın elə yüksək bədii zövq oxşayan poetik nümunələri verilir ki, onlar estetik tərbiyənin akademik səviyyəsi hesab oluna bilər.

Yarımfəsildə bu xüsusda deyilir ki, Naxçıvanın təbiət gözəllikləri içərisində Batabat yaylağının xüsusi yeri vardır. Aşıq İslamın "Batabat" rədifli qoşmasında Naxçıvanın Şahbuz bölgəsində yerləşən Batabat yaylığının təbii mənzərələri, oradakı Zor bulağın, yaraşıqlı dağların gözəllikləri tərənnüm olunur:

Batabat yaylağı haqqında yazılan poetik nümunələr içərisində Naxçıvan- aşıqlarının yazdıqları şeir nümunələri ona görə insan zövqünü məftun edir ki, bu əsrarəngiz yaylağı cənnətəbənzər yud yeri kimi seyr edən aşıqlar onu daha orijinal, daha qüdrətli estetik tərbiyə elementlərilə təsvir etmişlər. Estetik-bədii zövqün zirvəsində dayanan bu orijinallıq isə həmin nümunələri ən zəngin milli-mənəvi dəyərlər kimi etnopedaqoji səviyyəyə qaldırmışdır. Bütün bunları yarımfəsildə təqdim edilən qoşmada görmək olar:

Bulaqlar yığılıb sənin yanına,
Gözəllər gəliblər hər oylağına.
"Zor bulağ"ı yenə saldım yadıma,
Səndən doymur mənim gözüm, Batabat.

Qoşmanın hər bəndində Naxçıvanın gözəlliklərinə əbədiyaşarlıq gətirən misralar onu etnopedaqoji dəyər kimi estetik-bədii zövq aşılayan didaktik material halına gətirir:

Estetik tərbiyə ilə bağlı olan bu nümunələr təsdiq edir ki, Naxçıvan aşıqlarının yaradıcılığında estetik tərbiyə mövzuları geniş yer tutmuşdur. Bu mövzuların gənc nəslə aşılanması onların estetik şüurunun və estetik dünyagörüşünün formalaşdırılmasında xüsusi pedaqoji və tərbiyəvi əhəmiyyət kəsb edir. Bütün bunlara əsasən yarımfəslə yekun vurularaq belə bir ümumiləşmə aparılır:

- Naxçıvan folklorunun bütün kiçikhəcmli nümunələri estetik tərbiyə baxımından mühüm əhəmiyyət kəsb edir. Hansı ki, bu nümunələrin hər biri yetişən nəslin bədii zövqlərini tənzimləyir və mədəni istirahətini təmin edir;
- Naxçıvıvan folklorunun kiçikhəcmli nümunələri içərisində yetişən nəslin bədii zövqlərini daha yüksək səviyyədə saflaşdıran, onların estetik təminatını zənginləşdirən, təxəyyül imkanlarını genişləndirən laylalar, oxşamalar, bayatılar, haxıştalar, mövsüm və mərasim nəğmələri, xalq mahnıları, aşıq folkloru nümunələri etnopedaqoji tərbiyə baxımından çox dəyərlidir. Bu nümunələr yetişən nəslin nümayəndələrinin estetik-bədii zövq tərbiyəsi ilə yanaşı, onların əxlaqi-mənəvi və ekoloji tərbiyəsinin vəhdətdə inkişafını da təmin etmiş olur. Naxçıvan folkloruna məxsus olan bu keyfiyyətlər onu Naxçıvan xalq pedaqogikasının ən mühüm tərkib hissəsi kimi əbədiləşdirir.

İkinci fəslin sonuncu yarımfəslində Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində ekoloji tərbiyənin etnopedaqoji əsasları tədqiqat obyektinə çevrilir. Dissertasiyanın **"Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində ekoloji tərbiyənin yeri, rolu və əhəmiyyəti"** adlanan sonuncu yarımfəslində planetimizin ekoloji mühitinin qorunmasının zəruriliyi haqqında BMT-nin qəbul etdiyi sənədlərə, beynəlxalq səviyyədə keçirilən konfranslara, respublikamızda qəbul edilən "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na nəzər salınmış, ekoloji tərbiyənin zəruriliyi əsaslandırılmış, ekoloji tərbiyə ilə bağlı aparılan tədqiqatlar diqqətə çəkilmişdir.

Yarımfəsildə suyun, havanın, çiçəklərin, çəmənliklərin, yaşıllıqların, meşələrin, ağacların, nadir quşların və heyvanların qorunması, ətraf mühitin saflaşdırılması ideyalarını özündə əks etdirən folklor nümunələrinin pedaqoji dəyəri ekoloji tərbiyə kontekstində təhlil edilir. Digər yarımfəsillərdə olduğu kimi, bu yarımfəsildə də ekoloji tərbiyənin tərbiyənin digər tərkib hissələrilə, xüsusilə əxlaq tərbiyəsilə vəhdət təşkil etməsi və bu xüsusda olan folklor nümunələrinə istinad edilməsi Naxçıvanın tərbiyə mühitinə



məxsus olan etnopedaqoji əlamət kimi təqdim olunur. Yarımfəsildə verilən əfsanələrdəki pedaqoji ideyalar ayrı-ayrı praktik nümunələr əsasında diqqətə çəkilir və həmin nümunələrdəki ekoloji tərbiyə elementləri əxlaq tərbiyəsi elementlərilə vəhdət təşkil edərək etnopedaqoji dəyərlər səviyyəsinə yüksəldilir.

Yarımfəsildə göstərilir ki, Naxçıvan xalq pedaqogikasında ekoloji tərbiyə ilə əxlaq tərbiyəsinin vəhdəti "Koroğlunun nal daşı" adlı xalq rəvayətində öz əksini tapır. Rəvayətin süjetində deyilir:

"Ordubadın Ələhli kəndi yaxınlığında bir dərə var. Dərənin ortasında nal daşı var.

Deyilənə görə Koroğlu düşmənlə təkbətək vuruşur. Sonra da aradan çıxmaq istəyir. Nərə çəkib Qıratı çapır. At quş kimi uçub dərənin o tayına düşür. Qıratın ayağının biri sal daşın üstünə bərk dəyir, daşa nalın dərin izi düşür.

Həmin daşa "Koroğlunun nal daşı" deyirlər".

Göründüyü kimi, bu rəvayətdə Koroğlunun Qıratının nalının dərədəki sal daşın üstünə dəyib daşda iz açması Ordubadın Ələhli kəndinin ekoloji mühiti ilə bağlanmış və rəvayətdə realistləşdirilərək əbədiləşdirilmişdir. Həm də bu süjetdə maraqlı cəhət burasındadır ki, rəvayətin ekoloji mühitin dağ-dərə kultunun yaddaşlara həkk edilən epizodları həm ekoloji tərbiyə ilə, həm də əxlaq tərbiyəsi ilə vəhdətdə verilmişdir. Çünki rəvayətdə həm Koroğlunun vətəni qorumaq üçün düşmənlə vuruşu, döyüşü, qoçaqlığı, qəhrəmanlığı əxlaqi keyfiyyət kimi, həm də ekoloji mühitlə bağlı olan Ordubadın Ələhli kəndinin dərəsinin yaddaşlarda əbədiləşdirilməsi ekoloji ideya kimi verilmişdir. Beləliklə, rəvayətdə ekoloji tərbiyə ilə əxlaq tərbiyəsinin vətənpərvərlik komponentinin vəhdəti onu etnopedaqoji dəyərlər səviyyəsinə yüksəldir.

Bu yarımfəsildə Naxçıvan folklorunun xalq inancları və rəvayərlərində ekoloji tərbiyə məsələlərinə daha geniş yer verilir, "Qaranquş yuva quran həyətdə şaddıx olar", "Leyləyin yuvasını dağıtmazlar", "Leyləyə daş atmazlar, küsüb gedər, yaz yubanar", "Yahunu (göyərçini) öldürən xeyir tapmaz deyərlər", "Ahunu öldürən xeyir görməz", "Hər əvin bir ilanı olar. Ona toxunmazlar", "Ocax ilanı müqəddəsdi. İlan çox olan yer ocaxdı", "Səhər-səhər yol üstə qabağına dovşan çıxsa, işin uğurlu olar" kimi xalq inanclarının ekoloji tərbiyə baxımından təhlili verilir. Xüsusilə ekoloji mühitlə bağlı olan heyvanlar və quşlar aləminin qorunmasının zəruriliyi Naxçıvan folklor nümunələrinə istinadən dəyərləndirilir. Bu nümunələrdən birinə nəzər salaq:

"Qaranquşu öldürməh günahdı. Kim öldürsə, başına bir iş gələr. Qaranquş deyir ki:

Qaranquşam, qaranquş,
Qanadlarım ayrıc-ayrıc.
Məni vuran bəy oğlu,
Qan qussun ovuc-ovuc.

Bu xalq rəvayətində ekoloji mühitin qanunlarını pozanlar, təbiət kultuna düşmən münasibət göstərib ona zərər verənlər qaranquşun bilavasitə özü tərəfindən qarğınır və bu qarğış rəvayətdə ekoloji tərbiyənin cəzalandırma üsulu kimi təqdim olunur.

Yarımfəsildə bu kimi nümunələrlə yanaşı, "Şahın üzüm bağı", "Yalqız ağac", "Kölgən əksik olmasın", "Aydaş əfsanəsi" kimi xalq hekayə və əfsanələri, inanc və rəvayətləri də etnopedaqoji cəhətdən ekoloji tərbiyə nümunələri kimi təhlil olunub dəyərləndirilir.Yarımfəsildə qeyd olunanlar deməyə əsas verir ki, Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində zəhmətkeş xalqın ətraf mühitin saflaşdırılması və qorunması ideyaları etnopedaqoji dəyərlər kimi mövcud olmuş və pedaqoji fikir tarixini zənginləşdirmək baxımından onların tədqiqi zəruri sayılır. Yarımfəsil ümumiləşdirilərək son qənaət belə ifadə olunur:

- Naxçıvan folklorunun xalq inancları, xalq hekayələri, rəvayətlər, miflər, əfsanələr kimi nümunələrində ekoloji tərbiyənin yeri və şəxsiyyətyönümlülük baxımından əhəmiyyəti böyükdür;
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində suya, küləyə, oda, günəşə, aya, ulduzlara olan inanclar insanların dağlara, düzlərə, yaşıllıqlara, bulaqlara, güllərə, çiçəklərə, quşlara və heyvanlara ekoloji tərbiyə baxımından yanaşılmasını təmin etmişdir.
- Naxçıvan folklorunun kiçikhəcmli nümunələri zəngin etnopedaqoji mənbə kimi yeni yetişən gənc nəslə təbiət kultuna qayğı hissinin və ekoloji tərbiyənin aşılanması baxımından müstəsna pedaqoji dəyərə malikdir.

Elmi-tədqiqat dissertasiya əsərində tədqiqatdan alınan nəticələr aşağıdakı şəkildə qruplaşdırılmışdır:

1. Kiçikhəcmli folklor nümunələri etnopedaqoji materiallar olmaqla Azərbaycan məktəb və pedaqoji fikir tarixini zənginləşdirir, xalqımızın milli-mənəvi dəyərləri kimi yetişən nəslin tərbiyəsində mühüm rol oynayır.
2. Azərbaycan folklorunun ən mühüm tərkib hissəsi olan Naxçıvan folkloru, onun kiçikhəcmli nümunələri min illər və əsrlər boyu dildən-dilə,



ağızdan-ağıza keçərək xalqın mənəvi dünyasının zənginləşməsinə kömək etmiş, ən dəyərli etnopedaqoji materiallar səviyyəsinə yüksəlmiş və yetişən nəslin tərbiyə vasitəsinə çevrilmişdir.
3. Naxçıvan folklorunun laylalar, oxşamalar, atalar sözləri, məsəllər, nazlamalar, sınamalar, çaşdırmalar, alqışlar, qarğışlar, bəddualar, uğurlamalar, holavarlar, sayaçı sözləri, bayatılar, miflər, əfsanələr, rəvayətlər, əmək nəğmələri, mövsüm və mərasim nəğmələri, haxıştalar, yallılar (əsasən Şərur yallıları nəzərdə tutulur), aşıq yaradıcılığı, o cümlədən ustadnamələr, vücudnamələr, qoşmalar, təcnislər, cığalı təcnislər, dodaqdəyməzlər, gəraylılar, müxəmməslər, deyişmələr, qıfılbəndlər, gözəlləmələr kimi kiçikhəcmli nümunələri Azərbaycan xalq pedaqogikası materialları sayılmaqla xalq tərbiyəsinin mühüm vasitəsinə çevrilmişdir.
4. Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin formalaşmasına təsir edən amilləri özündə təcəssüm etdirən göstəricilərin olması tərbiyə işini stimullaşdırır. Ağılarda, laylalarda, bayatılarda, aşıq folklorunda, rəvayətlərdə, əfsanələrdə, miflərdə, kiçikhəcmli nağıl və dastansayağı rəvayətlərdə tərbiyə ünsürlərinin olması həm pedaqoji fikir tarixini zənginləşdirmək, həm də müasir dövrdə yetişən nəslin nümayəndələrinin bir şəxsiyyət kimi formalaşdırılmasını təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir.
5. Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin nadir variantlarının toplanılaraq pedaqoji prosesə təqdim edilməsi, mövcud materialların tərbiyəvi cəhətlərinin açıqlanması, aydınlaşdırılaraq təlqin edilməsi Azərbaycan xalq daqogikasının sanbalının artmasına öz töhfəsini verir və müasir şəraitdə şagird şəxsiyyətinin formalaşdırılmasına kömək etmiş olur.
6. Naxçıvan folklorunun kiçikhəcmli nümunələrindəki irsiyyət amili ilə bağlı elementlərin seçilməsi, qruplaşdırılaraq təsnif edilməsi etnopedaqogikamızın yeni elmi-pedaqoji ənənələrinin yaranmasına təkan verir və eyni zamanda müasir dövrdə tərbiyə işinin modernləşdirilməsinə istiqamət vermiş olur.
7. Şəxsiyyətin formalaşmasına təsir edən mühit amillərini özündə səciyyələndirən folklorumuzun kiçikhəcmli nümunələrinin (Naxçıvan folklorunun timsalında) toplanılması, pedaqoji prosesdə istifadə etmək üçün yararlı vəziyyətə gətirilməsi pedaqoji fikrimizin zinətləndirilməsində və orta ümumtəhsil məktəblərində, eləcə də təhsilin digər pillələrində, həmçinin sosial mühitdə tərbiyə işinin düzgün qurulmasına köməklik göstərəcəkdir.
8. Şəxsiyyətin formalaşdırılmasına təsir edən tərbiyə amilini özündə əks etdirən kiçikhəcmli folklor nümunələrinin (Naxçıvan folklorunun nümunəsində) toplanılması, təsnif edilərək pedaqoji prosesə təqdim edilmə-

si onların Azərbaycan xalq pedaqogikası materialları sırasında layiqli yer almasını təmin edəcək və hazırkı dövrdə valideynlərə, müəllimlərə, tərbiyəçilərə yetişən nəslin hərtərəfli inkişafının stimullaşdırılması baxımından yardım göstərəcəkdir.

9. Kiçikhəcmli folklor nümunələrinin əxlaqın saflaşdırılmasına kömək edən variantlarının (Naxçıvan folkloru timsalında) toplanılması, sistemə salınaraq pedaqoji prosesdə istifadə etmək üçün yararlı vəziyyətə gətirilməsi onların bir tərəfdən etnopedaqoji materiallar kimi sanbalını artırır, digər tərəfdən müasir dövrdə yetişən nəslin davranışla əlaqədar olan mənəvi keyfiyyətlərinin formalaşdırılması işinə təkan vermiş olur.

10. Elmi pedaqogikada olduğu kimi, etnopedaqogikada da ağıl və əqli tərbiyə şəxsiyyətin formalaşdırılması işində ilk sıralarda dayandığı üçün Naxçıvan folklorunun kiçikhəcmli nümunələrinin ağıl və əqli tərbiyə elementlərini özündə əks etdirən variantlarının da toplanılması, pedaqoji prosesə təqdim edilməsi, toplanılanların isə ailədə, məktəbdə və sosial mühitdə yetişən nəslin hərtərəfli inkişafı baxımından istifadə olunması tərbiyəşünaslıq baxımından intəhasız dərəcədə faydalıdır.

11. İnsanların inkişafının ilkin amili olan əmək insanları formalaşdırdığı kimi, onların ilkin tərbiyəsi üçün də əsas olmuşdur. Bu əsaslar isə kiçikhəcmli folklor materiallarında ən aparıcı yerlərdən birini tutur. Xüsusilə Naxçıvanın kiçikhəcmli folklor nümunələrində əməyə vicdanlı münasibət, əmək adamlarına hörmət və ehtiramın, işgüzarlığın dəyərləndirliməsi daha bariz şəkildə özünü göstərir. Belə nümunələrin etnopedaqoji materiallar kimi tərbiyəşünaslıq baxımından sistemə salınması çox faydalıdır.

12. Naxşıvan folklorunun kiçikhəcmli nümunələri içərisində zövq oxşayan, təbiətdə, cəmiyyətdə, incəsənətdə olan gözəlliklərin duyulması, qavranılması və qiymətləndirilməsi bacarığını tərbiyə edən nümunələr daha çoxdur. Bayatılar, nəğmələr, bayram ənənələri, toy adətləri ilə bağlı olan nümunələr, haxıştalar, xalq mahnıları, halaylar, yallılar, fərdi-kütləvi rəqslər, oyun havaları, aşıq yaradıcılığı nümunələri yetişən nəslin estetik tərbiyəsini formalaşdırmaq baxımından böyük qüdrətə malik olduğu üçün pedaqoji fikir tariximizi zənginləşdirir və yetişməkdə olan nəslin nümayəndələrinin yeni insan qismində tərbiyələndirilməsində xüsusi rol oynayır..

13. Kiçikhəcmli folklor nümunələri içərisində fiziki sağlamlığın qorunması məsələləri də yer alır. Belə nümunələrdən istifadə etməklə yetişən nəslin fiziki tərbiyəsini inkişaf etdirərək tənzimləyən didaktik materialların hazırlanması və praktik işlərin ərsəyə gətirilməsi çox faydalıdır.

14. Ətraf mühitin saflaşdırılması, ağacların, bağçaların, yaşıllıqların, bulaqların, meşələrin, nadir quşların, faydalı heyvanların qorunması ilə



bağlı Naxçıvan folklorunda çoxsaylı örnəklər vardır. Bu örnəkləri toplamaq, təsnif edərək sistemləşdirmək, tərbiyə nümunələri şəklinə salmaq Azərbaycan xalq pedaqogikası materiallarının və Naxçıvan etnopedaqogikasının nəzəri mənbələrinin sırasını zənginləşdirməklə yanaşı, ailədə, məktəbdə və sosial mühitdə tərbiyə işinin yaxşılaşdırılması sahəsində irəliyə atılan müvəffəqiyyətli addımlardan biri hesab olunur.

15. İnsanların maddi rifah halı ilə bağlı oyunlar, kütləvi rəqslər, halaylar, əmək məhsullarının yaradılmasına həsr olunan nəğmələr, holavarlar, iqtisadi inkişafı, izafi dəyəri qazanmaq normalarını özündə əks etdirən mahnılar, xorla oxu formaları, deyişmələr, xalq oyunları, yarış mərasimləri Naxçıvan folklorunun əməyə məhəbbət leytmotyivini təşkil edir. Naxçıvan folklorunun kiçikhəcmli belə nümunələrinin toplanması, sistemləşdirilməsi, didaktik material halına gətirilməsi, pedaqoji prosesə təqdim olunması yetişən nəslin iqtisadi tərbiyəsinin inkişafında mühüm əhəmiyyətə malikdir.

16. Naxçıvanda yaranan xalq oyunlarında, kiçikhəcmli nağıllarda, qısa süjetli dastansayağı rəvayətlərdə, mövsüm və mərasim nəğmələrində, Novruz bayramı ənənələrinə həsr olunmuş deyimlərdə, xalq dramlarında, nəsihətlərdə, əfsanələrdə, miflərdə ictimai-sosial mühitdəki qanunauyğunluqlara və qanunlara, habelə təbiət qanunlarına, el-oba qınağına dair xalqın müdrik kəlamlarının araşdırılması, ipə-sapa düzülməsi, sistemləşdirilərək tərbiyə nümunəsinə çevrilməsi Azərbaycan və eləcə də Naxçıvan etnopedaqogikasının zənginləşdirilməsi və yeni insan tərbiyəsi sahəsində qazanılan mənəvi qələbələrdən hesab olunur.

17. Azərbaycan etnopedaqogikasını zənginləşdirən Naxçıvan folklorunun kiçikhəcmli ümunələrinin yaşauyğunluq prinsipi üzrə hazırlanaraq çap olunması faydalı olar. Belə nümunələr Azərbaycan xalq pedaqogikası irsini zənginləşdirməklə yanaşı, müasir, modern tərbiyə sisteminin yaranmasına səbəb olar.

18. Şərur yallılarının, Naxçıvan rəvayətləri və əfsanələrinin, xalq dramlarının, xalq tamaşalarının, lentə alınmış kütləvi xorların, kütləvi rəqslərin tərbiyəvi ssenariləri yazılmış disklərinin, fotoalbomlarının filmoteka materialı kimi hazırlanması həm etnopedaqogikamızın inkişafı üçün, həm də modern tərbiyə məktəbinin yaranması üçün faydalı olar.

19. Biz Naxçıvan folkloru əsasında kiçikhəcmli foklor nümunələrində tərbiyə məsələləri problemini həll etməklə artıq tərbiyə məsələlərinin elmi-pedaqoji sistemini yaratmışıq. Ona görə təklif edirik ki, AMEA-nın Naxçıvan bölməsinin nəzdində Naxçıvanın etnopedaqogikasını tədqiq edən elmi bölmə yaradılsın. Əgər belə bir bölmə yaradılarsa, Naxçıvan xalq pe-

daqogikası antologiyasının cildlərinin yaranmasına yol açılar.

20. Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşadığı üçün istisna hal kimi Naxçıvan M R Təhsil Nazirliyinin təqdimatı əsasında Naxçıvan Ali Məclisinin Naxçıvanın ali məktəblərində “Naxçıvan folklorunda tərbiyə məsələləri” kursunun tədrisinə icazə verməsi çox faydalı olar. Bu təklifin həyata keçirilməsi dərslik, dərs vəsaiti və metodik ədəbiyyat qismində “Naxçıvan xalq pedaqogikası”, “Naxçıvan etnopedaqogikası”, “Naxçıvan folklorunda tərbiyə məsələləri”, “Naxçıvan xalq pedaqogikası atnologiyası”, “Naxçıvan etnopedaqogikası müntəxəbatı” kimi kitabların işıq üzü görməsinə şərait yaratmış olar.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı əsərləri nəşr olunmuşdur:**

1. Naxçıvan folklorunda fiziki tərbiyə məsələləri // Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər”i, 2011, № 1, səh. 219-226.
2. Nağıllarda fiziki tərbiyə və idman // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal). 2011, № 4 (80), səh. 220-221.
3. Naxçıvan aşıqlarının yaradıcılığında estetik tərbiyə məsələləri // Naxçıvan Müəllimlər İnstitutunun “Xəbərlər”i, 2011, № 4 (28), səh.41-50.
4. Naxçıvan folklorunda estetik tərbiyə məsələləri // Naxçıvan Müəllimlər İnstitutunun “Xəbərlər”i, 2012, № 1, səh.21-32
5. Azərbaycan folklorunda şəxsiyyətin inkişafı və formalaşmasında tərbiyənin rolu (Naxçıvan materialları əsasında) // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun “Elmi əsərlər”i, 2012 , № 2, səh. 143-148.
6. Tərbiyə prosesində folklor nümunələrindən istifadə // Azərbaycan Müəllimlər İnstitutunun “Xəbərlər”i, 2012, №2, səh. 30-33.
7. Naxçıvan folklorunda əməyə məhəbbət tərbiyəsi // Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər”i, humanitar elmlər seriyası, 2012, № 2, (46), səh. 211-216.
8. Azərbaycan folklorunda şəxsiyyətin inkişafı və tərbiyəsində irsi amillərin rolu (Naxçıvan materialları əsasında) // Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Xəbərlər”i, 2013, № 1, səh.340-344.
9. Azərbaycan mərasim nəğmələrində ekoloji tərbiyə (Naxçıvan folkloru əsasında). Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Xəbərlər”i, 2013, № 2, səh. 311-315.
10. Azərbaycan əfsanə və rəvayətlərində ekoloji tərbiyə // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun “Elmi əsərlər”i, 2013 , № 2, səh. 15-20.



11. Azərbaycan miflərində ekoloji tərbiyə (Naxçıvan folkloru əsasında) // Azərbaycan Müəllimlər İnstitutunun “Xəbərlər”i, 2013, № 1, 23-28.

**XARİCDƏ ÇAP OLUNAN MƏQALƏLƏR:**

12. Nahçıvan folklorunda çevresel terbiye // “Kardeş kalemler”. Aylık Avrasiya Edebiyyat Dergisi (Nahçıvan özel sayısı). Ankara, Kasım, 2012, səh. 67-71.
13. Azerbaycan Folklorunda Ekolojik Egitim (Nahçıvan Materialları Üzre) //“Egitim ve Toplum” (Egitim bilimleri ve sosial araştırmalar dergisi). Ankara, 15 nisan 2013, səh.161-178.
14. Вопросы физического и нравственного воспитания в азербайджанском фольклоре (на основе нахчыванского фольклора) // Известия высших учебных заведений поволжский регион. Гуманитарные науки. № 3, (31), 2014 г.,стр. 234-241.

**KONFRANS MATERİALLARI:**

15. Xalq müdrikliyində fiziki tərbiyə və sağlamlıq işləri (Naxçıvan nağılları əsasında) / Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun “Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri” mövzusunda keçirdiyi Respublika Elmi Konfransının Materialları, Bakı, 28 iyun 2012, səh. 253-256.
16. Laylalarda estetik tərbiyə (Naxçıvan materialları əsasında) / Sumqayıt Dövlət Universitetinin 50 illiyi münasibətilə “ Filologiyanın aktual problemləri: Axtarışlar və perspektivlər” mövzusunda keçirilən Respublika Elmi Konfransının Materialları. Sumqayıt, 2012, səh. 202-205.
17. Azərbaycan xalq inanclarında ekoloji tərbiyə (Naxçıvan materialları əsasında) / Naxçıvan Müəllimlər İnstitutunun ümummilli lider Heydər Əliyevin 89 illiyinə həsr olunmuş “ Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda keçirdiyi elmi-praktiki konfransının materialları, 4 may 2012, səh.40-43.
18. Heydər Əliyev və Azərbaycan folklorunda ekoloji tərbiyə (Naxçıvan folkloru əsasında) / Bakı Slavyan Universitetinin ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda keçirdiyi IV Beynəlxalq elmi konfransının materialları, BSU, 1-4 may 2013, səh. 309-311.

19. Azərbaycanın Naxçıvan bölgəsində əlyazmalarda qeydə alınan folklor nümunələrində tərbiyə məsələləri / Naxçıvan Dövlət Universitetində "Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri" mövzusunda keçirilən Beynəlxalq konfransın materialları, NDU, 2013, səh. 35.

**Меджебин Аскер кызы Гадимбейли**

## ВОПРОСЫ ВОСПИТАНИЯ В МАЛООБЪЕМНЫХ ОБРАЗЦАХ ФОЛЬКЛОРА (НА ОСНОВЕ НАХЧЫВАНСКОГО ФОЛЬКЛОРА)

## РЕЗЮМЕ

Диссертационная работа, посвященная вопросам воспитания в малообъемных образцах Нахчыванского фольклора, состоит из введения, двух глав, включающих в себя восемь подглав, заключения и рекомендаций, списка использованной литературы.

Во «Введении» обосновывается актуальность темы, описываются приемы и методы исследования, формулируются выдвигаемые к защите положения.

В первой главе под названием «Этнопедагогическая сущность, воспитательное значение малообъемных образцов фольклора и определяющие личность свойства» рассматриваются этнопедагогическая сущность малообъемных образцов Нахчыванского фольклора, определяющие личность свойства и привлекается к исследованию воспитательное значение этнопедагогического материала, влияющего на формирование личности.

Во второй главе под названием «Система составных частей воспитания в малообъемных образцах Нахчыванского фольклора» в системной форме описываются относящиеся к составной части воспитания этнопедагогические образцы. В этой главе с научно-педагогической точки зрения анализируются имеющиеся в малообъемных образцах Нахчыванского фольклора мысли о морали, интеллекте, трудолюбии, эстетическом и экологическом воспитании, а также выясняются роль, место и значение этих мыслей во всестороннем воспитании подрастающего поколения. В подглаве сделаны первые шаги по созданию Нахчыванской этнопедагогики, что является одним из достижений диссертанта.

Научная новизна, теоретическая и практическая значимость диссертации заключается в том, что впервые в истории педагогической мысли Азербайджана на основе малообъемных образцов Нахчыванского фольклора в системной форме анализируются вопросы воспитания, тем самым создавая предпосылки для создания Нахчыванской этнопедагогики.

В заключении суммируются результаты исследования, предлагаются рекомендации по использованию этнопедагогического материала на занятиях педагогики и литературы в высших учебных заведениях в ступени бакалавриата и магистратуры, а также на уроках устного народного творчества в общеобразовательных школах.



**Mahcabin Asgar gizi Gadimbayli**

## EDUCATİONAL İSSUES İN SMALL FOLKLORE SAMPLES (on the basis of Nakhchivan folklore)

## SUMMARY

The dissertation dedicated to the educational issues in small samples of Nakhchivan folklore consists of the introduction, two chapters including 8 semi-chapters, conclusion, proposals and the list of the used literature.

The Introduction substantiates the topicality of the theme and explains the objectives of the research.

The first chapter entitled 'The ethno-pedagogical essence, the educational value and personality-oriented features of small samples of Nakhchivan folklore" highlights the ethno-pedagogical essence, the educational importance and personality-directed features of small folklore samples and the chapter focuses on the educational significance of ethno-pedagogical materials on the role of the factors affecting on personality formation.

The semi-chapter entitled "The system of the components of education in small samples of Nakhchivan folklore" systematically analyzes the ethno-pedagogical samples on the main component of education. In this semi-chapter the author studies the views on morals, intellect, labor, diligence, aesthetic and ecological education in small samples of Nakhchivan folklore, as well as the role, place and importance of these views in the comprehensive education of younger generation including their formation as personality in the scientific –pedagogical aspect. The researcher has made attempts to create the first versıon of Nakhchivan ethno-pedagogy on the basis of small samples of Nakhchıvan Peoples pedagogy. It serves to be one of the most important novelties of the research.

The dissertation explores the ethno-pedagogical essence of small samples of Nakhchivan folklore that serves to enrich the history of school and pedagogical thought and on the basis of educational importance of these samples there appeared the first models of Nakhchivan pedagogy.

The research concludes that scientific novelties with their theoretical and practical importance will greatly contribute the people who teach literature, leaders of extra class activities, learners of Azerbaijani

folklore and Peadagogy in higher schools, as well as those who study ethno-pedagogical values.

The research work results in 20 items, conclusion and views.

Çapa imzalanmışdır: 06.07.2015
Formatı: 60x90, 16/1, həcmi: 1.4 ç/v.
Tiraj: 100, sifariş № 30



NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

***На правах рукописи***

**МЕХДЖЕБИН АСКЕР КЫЗЫ ГАДИМБЕЙЛИ**

# ВОПРОСЫ ВОСПИТАНИЯ В МАЛООБЪЕМНЫХ ОБРАЗЦАХ ФОЛЬКЛОРА (НА ОСНОВЕ НАХЧЫВАНСКОГО ФОЛЬКЛОРА)

5804.01 – Общая педагогика, история педагогики и образования

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по педагогике

**НАХЧЫВАН – 2015**